# Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol №10-R) «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər» təsdiq edilmiş və bu məsələ ilə bağlı dövri elmi nəşrlərin baş redaktorlarının iştirakı ilə keçirilmiş elmi-praktik seminarda qeyd olunan faydalı tövsiyələr nəzərə alınmışdır.**

1. Dövri elmi nəşr Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçməlidir.
2. Dövri elmi nəşr Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN) almalıdır. Əgər dövri elmi nəşrin elektron variantı varsa, onda o da qeydiyyatdan keçərək E-ISSN kodu almalı və internetdə yerləşdirilməlidir.
3. Dövri elmi nəşrin internetdə saytı olmalı və onun «online» olaraq məqalə qəbul etmək imkanı olmalıdır.
4. Dövri elmi nəşrin təsisçisi və ya təsisçiləri aydın şəkildə qeyd olunmalıdır.
5. Dövri elmi nəşrin redaksiya heyəti olmalıdır. Müxtəlif elm sahələri üzrə məqalələr dərc edən dövri elmi nəşrdə hər bir elm sahəsinin ayrıca redaktoru, redaksiya heyəti, uyğun elm sahələri üzrə mütəxəssislərdən ibarət anonim rəyçiləri olmalı və bu rəyçilər siyahısının anonimliyi dövri elmi nəşrin redaksiya heyəti tərəfindən qorunmalıdır. Redaksiya heyətinin üzvləri dövri elmi nəşrin profilinə uyğun görkəmli mütəxəssislərdən ibarət olmalı və onların redaksiya heyətinə daxil edilməsi üçün yazılı razılığı olmalıdır. Dövrü

elmi nəşrdə redaksiya heyəti üzvlərinin hər birinin adı (tam şəkildə), elmi titulu, elmi dərəcəsi və elmi adı qeyd olunmalıdır.

6. Məqalələr anonim rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim olunmalıdır. Məqalənin sonunda onu çapa təqdim edən sahə redaktorunun və ya redaksiya heyəti üzvünün adı (tam şəkildə), onun elmi titulu, elmi dərəcəsi və elmi adı qeyd olunmalıdır. Təqdim olunan məqalənin dərc olunmasından imtina edildiyi halda dövri elmi nəşrin redaksiyası yazılı şəkildə müəllifə əsaslandırılmış imtina cavabı göndərməlidir.

7. Dövri elmi nəşrin redaksiyası Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası ekspert şuralarının sorğularına cavab olaraq tələb olunan məqalənin dərc olunmasına dair verilmiş rəyləri vaxtında təqdim etməlidir.

8. Ali məktəb və ya elmi müəssisə tərəfindən nəşr olunan dövri elmi nəşr müəssisənin elmi fəaliyyət istiqamətlərinə, yüksək ixtisaslı elmi kadr potensialına, mövcud elmi infrastrukturuna, elmi tədqiqat və mütəxəssis hazırlığı istiqamətinə və s. uyğun olmalıdır.

9. Dövri elmi nəşr öz profilinə uyğun məqalələri dərc etməlidir. Əgər dövri elmi nəşr müxtəlif elm sahələri üzrə məqalələr dərc edirsə, onda dövri elmi nəşrdə bölmələr olmalıdır: məsələn, riyaziyyat, fizika, astronomiya və s., yaxud ədəbiyyatşünaslıq, dilçilik və s.

10. Dövri elmi nəşrdə onun dövriliyi göstərilməli və gözlənilməlidir. Dövri elmi nəşrə 1-2, 3-4, 3-5 kimi nömrələr qoymağa icazə verilmir.

11. Dövri elmi nəşrin redaksiyasının poçt ünvanı, telefon nömrəsi, elektron poçt ünvanı göstərilməlidir.

12. Dövri elmi nəşrin formatı jurnal formatında olmalı və 250x180 mm-dən kiçik olmamalıdır.

13. Dövri elmi nəşr, elm sahələrinə uyğun olaraq, aşağıdakı beynəlxalq xülasələndirmə və indeksləndirmə sistemlərindən ən azı birinə daxil olmalıdır: Web of Science, Chemical Abstracts, Current Abstracts, CAB Abstracts, Computer

and Control Abstracts, Physics Abstracts, BIOSIS/Biological Abstracts, Historical Abstracts, Sociological Abstracts, Geological Abstracts, SCOPUS, Web of Knowledge, Astrophysics, Pub Med, Mathematics, Springer, Agris, Index Copernicus, AGRICOLA, GEOBASE, EBSCOhost, Mathematical Reviews, Zentralblatt Math, Index Veterinarius, ABI/Inform, ANBAR, COREJ, Business Periodical Index, Philosopher's Index, Science Citation Index Expanded, Arts and Humanities Citation Index, Social Sciences Citation Index, INSPEC, EMBASE, SPIN, Electrical and Electronics Index, Energy Research Abstracts, Current Physics Index, GeoRef və s.

14. Dövri elmi nəşrin hər hansı bir nömrəsində və ya onun adında dövri elmi nəşr redaksiyasının əvvəlcədən müəyyən etdiyi yalnız bir seriyanı göstərməyə icazə verilir.

15. Dövri elmi nəşrdə «müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər» kimi ifadələrə rast gəlindikdə həmin dövri elmi nəşrin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı»ndan çıxarılması məsələsinə baxılır.

16. Məqalələr dövri elmi nəşrin təsis sənədlərində qeyd edilmiş dildə və ya dillərdə (məsələn, Azərbaycan, ingilis və rus dillərində) dərc oluna bilər. Xarici dildə məqalələr dərc edən dövri elmi nəşrin redaksiya heyəti üzvlərinin sırasında dərc olunan məqalənin aid olduğu elm sahəsi üzrə xarici dili bilən tanınmış mütəxəssis olmalıdır.

17. Dövri elmi nəşr hansı dillərdə məqalə dərc edirsə, həmin dillərin hər birində məqalə müəllifləri üçün qaydalar verilməlidir.

18. Dövri elmi nəşrdə baxılan elm və ya texnologiya sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına yer verilməlidir.

19. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əlifbası ilə) 1 intervalla çap olunmalıdır.

20. Hər bir məqalə yeni səhifədə verilməli və səhifənin yuxarısında dövri elmi nəşrin adını, ilini, cildini, sayını, məqalənin başlanğıc və son səhifələrini bildirən başlıq (zastavka) olmalıdır.

21. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin (müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməlidir.

22. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

23. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı) ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

24. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

25. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

26. Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalələnin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni

olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam adı göstərilməlidir.

27. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

28. Məqalənin redaksiyaya daxil olma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixləri sonda göstərilməlidir.

29. Dövri elmi nəşrin redaksiyası məqalənin dərc olunması ilə əlaqədar olaraq müəllif və ya müəlliflərin razılığını, göndərilən məqalənin əvvəllər dərc olunmadığını (məqalənin tezis şəklində dərc olunmuş variantı istisna olmaqla), məqalənin hər hansı bir dildəki variantının eyni zamanda digər dövri elmi nəşrlərə

göndərilmədiyini və məqalə ilə bağlı elmi-tədqiqat işinin hansı müəssisədə yerinə yetirildiyini əks etdirən anket hazırlamalıdır. Bu anketi müəllif(lər) imzalayıb redaksiyaya göndərməli və ya dövri elmi nəşrin saytına daxil olub anketin elektron variantını doldurmalı və onu elektron təsdiqləməlidir(lər).

30. Elmi jurnallarda «əvvəli ötən saylarımızda», «ardı növbəti nömrədə» adı altında seriya məqalələrin dərc olunmasına icazə verilmir.

31. Dövri elmi nəşrin əvvəlki nömrələrində dərc olunmuş məqalələrdə rast gəlinən ciddi səhvlər və ya texniki qüsurlara dair düzəliş və qeydlər elmi nəşrin növbəti nömrələrindən birində müəllif(lər) tərəfindən yenidən verilə bilər. Bu halda əvvəlki məqalə ilə «DÜZƏLİŞ» bölməsində verilən məqalənin adı eyni olmalıdır.

32. Plagiatlıq faktı aşkar edilən məqalələri dərc edən dövri elmi nəşrin redaksiyasına Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən ciddi xəbərdarlıq edilir və bu faktlara təkrar rast

gəlindiyi halda həmin dövri elmi nəşrin Ali Attestasiya Komissiyasının müəyyən etdiyi «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı»ndan çıxarılması məsələsinə baxılır.

33. Dövri elmi nəşrin zəruri nüsxələri, ixtisaslara uyğun olaraq, Azərbaycan Respublikasında dissertasiyaların avtoreferatlarının göndərildiyi təşkilatlara, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına göndərilməlidir. Elmi nəşrin hər bir nömrəsinin nəzərdə tutulmuş kitabxanalardan hər birinə göndərilən nüsxələrinin sayı ikidən az olmamalıdır.

34. Dövri elmi nəşrin minimal tirajı müəyyən edilərkən 33-cı bəndin tələbləri nəzərə alınmalıdır.

35. Dövri elmi nəşrin redaksiyasına doktorant və dissertantlardan həmin elmi nəşrdə məqalələrin dərc olunması üçün rüsum alınmasına icazə verilmir.

36. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən keçirilən növbəti monitorinq nəticəsində yuxarıdakı tələbləri ödəməyən dövri elmi nəşrlərin «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı»ndan çıxarılması məsələsinə baxılır.

Qeyd:

Yeni dövri elmi nəşrin və ya son siyahıya daxil edilməmiş dövri elmi nəşrin «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı»na daxil edilməsi üçün həmin dövri elmi nəşrin son on iki ay ərzindəki axırıncı iki nömrəsi müəssisə rəhbərinin və ya baş redaktorun müraciət məktubu ilə birlikdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilməlidir.